# مقدمة وغلاف المنتقى من موسوعة الأحاديث النبوية

Mərhəmətli və Rəhmli Allahın adı ilə

Müqəddimə

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salavatı və salamı peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə və Qiyamət gününə qədər onlara gözəl şəkildə tabe olanların üzərinə olsun, daha sonra:

Allahın kitabından sonra, müsəlmanın diqqət etməli olduğu, oxuyub düşünəcəyi və tədəbbür edəcəyi,elm alıb əməl edəcəyi ən böyük şey Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsidir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir:

«تركتُ فيكم أيُّها الناس، ما إنِ اعتصمتم به، فلن تضلُّوا أبدًا: كتاب الله، وسُنَّة نبيِّه»

«Ey insanlar, mən sizə elə bir şeyi qoyub gedirəm ki, ona əməl etsəniz, heç vaxt azmazsınız: Allahın kitabını və peyğəmbərin sünnəsini». Hədisi İmam Məlik rəvayət etmişdir. Uca Allah buyurmuşdur:

{وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا}

{Allahın rəsulu sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin.} [əl-Həşr:7]. Buna görə də «Müxtəlif Dillərdə İslamı Mətnlərə Xidmət Birliyi» və «Rabva Təbliğ və Maarif Birliyi» peyğəmbər hədisləri ensiklopediyasının hazırlanması və müxtəlif dillərə tərcümə edilməsinə həvəs göstərmişlər.

Artıq Uca Allah bu ensiklopediyadan müsəlmanın dinində və gündəlik həyatında ehtiyac duyduğu mövzuların seçilməsini, onun qısa izah edilməsini, məna və dəlalətini və bəzi faydalarının açıqlanmasını asanlaşdırmışdır. Və o bu cür adlanan kitabda təqdim olunur: "Peyğəmbər hədisləri ensiklopediyasından seçmələr" Hər kəsə faydalı olması və Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) sünnəsinin bəşəriyyətə öz dillərində çatdırılması üçün  bunun, dünyanın bütün canlı dillərinə tərcüməsi üzərində işlənilir.

Allahdan bu əməli bizdən qəbul etməsini, onu bərəkətli və Allahın razılığı umulan ixlaslı əməl etməsini və bu kitabın hazırlanması, tərcüməsi və yayılmasında əməyi keçən hər bir kəsi mükafatlandırmasını istəyirik.

Perğəmbərimizə Allahın salavatı və salamı olsun

Qısa xülasə

Peyğəmbərin hədisləri Şəriətin ikinci mənbəyidir. Uca Allah buyurmuşdur:

{وَمَا يَنْطِقُ عَنِ الْهَوَى (٣) إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى}

{O, öz hava-istəyi ilə danışmır (3)

Bu, ona təlqin edilən bir vəhydir}. [ən-Nəcm 3-4].

Hədis ensiklopediyasından edilmiş bu seçmələr müsəlmanın dinində və gündəlik həyatında ehtiyac duyduğu geniş mənalı hədisləri, onların qısa izahı, məna və dəlalətlərinin və bəzi faydalarının

açıqlanması ilə birlikdə özündə cəm etmişdir. Həmçinin hər kəsə faydalı olması və Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) sünnəsinin bəşəriyyətə öz dillərində çatdırılması üçün dünyanın bir sıra canlı dillərinə tərcümə edilmişdir.

**Mündəricat**

No table of contents entries found

az375v1.0 - 04/09/2026